

*Nəriman Süleymanoğlu*
*Texnika üzrə fəlsəfə doktoru,*

## XOŞ GƏLDİN, 50 YAŞIM

*Həyat sirli bir nağıl,*
*Ömür-gün şəkər, noğul.*
*Quş kimi ötüşür aylar, illər,*
*Dəyişir fəsillər.*
*Yumdum gözümü,*
*Açanda*
*Başqa dünyada*
*Gördüm özümü.*
*Ötüşüb baharım, qışım,*
*Başımın üstünü alıb 50 yaşım.*
*Elə bil, dünən idi,*
*Şəkinin küçələrində,*
*Aydın gündüzlərində,*
*İşıqlı gecələrində*
*Ayaqyalın başı açıq*
*Gəzdiyim günlər,*
*Gül-çiçəyi şehli-şehli*
*Üzdüyüm günlər.*
*Elə bil dünən idi*
*Qədim Gəncədə*
*Ürəyimi verib*
*"Hə" aldığım gün.*
*Həyatıma yeni iz*
*Saldığım gün.*
*Elə bil dünən idi.*
*Qismətimin Bakını*
*Seçdiyi gün.*
*Nərimanın Bakıya*
*Köçdüyü gün.*
*Yumdum gözümü,*
*Açanda başqa dünyada*
*Gördüm özümü.*
*Nə atam var,*
*Nə anam,*
*Mənimtək yetim*
*Qalıb dünyam.*
*Anam yadıma düşdü,*
*Gözümdən iki damla yaş düşdü.*
*Rəvanə məni xəyaldan ayırdı.*
*Ata, ay ata, İnci nəvənə*
*Bir "gəlincik" alsana.*
*Atam yadıma düşdü.*
*Ürəyim kövrəkləşdi.*
*Rəvan məni xəyaldan ayırdı*
*Ata, ay ata, istirahət günüdü,*
*Ayla balanı bulvara aparsana*
*Yumdum gözümü,*
*Açanda başqa dünyada*
*Gördüm özümü*
*Həm atam var,*
*Həm anam.*
*Ana deyə qızımı əzizləyirəm.*
*Ata deyə oğlumun yolunu gözləyirəm.*
*Bir yanda qəm-kədər,*
*Bir yanda toy-büsat.*
*Davam edir həyat*
*Hələ çox olacaq*
*Sevincim, təlaşım,*
*Xoş gəldin ömrümə 50 yaşım!*